

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*

**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*

**İlham ƏLİYEV**


Bir parça daş vətəndir!

*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 02 (17) Fevral 2026-cı il


# Prezident İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılışında iştirak edib






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Memorial barədə məlumat verdi.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiya ziyarətçiləri "Faciənin siması" instalyasiyası ilə qarşılayır. Rəşad Ələkbərov və Azər Rüstəmovun müəllifləri olduqları instalyasiya 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırımının qurbanlarını - qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri canlandırır.

Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.




XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada "Xocalı - qədim sivilizasiyanın izləri", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalını unutma!" adlı ekspozisiyalarda Xocalının tarixi, işğalın coğrafiyası, münaqişənin xronologiyası, beynəlxalq hüquq normalarının pozulması, bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim olunur.

İkinci ekspozisiya zalında Sərxan Hacıyevin "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, insanlıq əleyhinə yönəlmiş cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular, sükuta qərq olan uşaq gülüşləri süni intellektlə hazırlanan video vasitəsilə təqdim edilir.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, müxtəlif dillərdə hazırlanan nəşrlər və informasiya materialları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər və onun fəal iştirakı ilə bu sahədə həyata keçirilmiş tədbirlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük Qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyası ilə tamamlanır.

Memorialın növbəti bölməsində rəsmi tədbirlərin və anım mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulan akt zalı var.

Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törədib. Faciə zamanı 613 nəfər qətlə yetirilib. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insan olub. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib.

İşğaldan azad edilən Xocalıda ucaldılan Memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Xocalı qurbanlarının ruhları bu gün şaddır. Müzəffər Ali Baş Komandanın da dediyi kimi, onların qanı yerdə qalmadı, onların qisası Vətən müharibəsi zamanı döyüş meydanında alındı.

Sonra Prezident İlham Əliyev Memorialın xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.




# Azərbaycan Prezidenti Gənclər Günü ilə bağlı paylaşım edib

***Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib.***

AZƏRTAC paylaşımı təqdim edir: "Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!".

# 2 Fevral – Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

***Sizi 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.***

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk ümumrespublika gənclər forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir.

Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir.

Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# Könül Həsənovanın “Əsa” hekayəsi I Ümumrespublika Müsabiqəsində II yerə layiq görülüb



***Könül Nəriman qızı Həsənova “Bir Elin Manifesti” adlı Qərbi Azərbaycan mövzusunda hekayə janrı üzrə I Ümumrespublika Müsabiqəsində II yerə layiq görülüb.***

Qərbi Azərbaycan İcması tərəfindən təşkil olunan və Qadınlar Şurasının təşəbbüsü ilə reallaşdırılan bu nüfuzlu müsabiqədə “Əsa” adlı hekayəsi ilə fəxri kürsüdə yer alması Könül Həsənovanın istedadının, mövzuya həssas və məsuliyyətli yanaşmasının bariz nümunəsidir.

Qərbi Azərbaycanın ağrılı taleyini, yurd həsrətini və tarixi yaddaşını bədii sözün gücü ilə ifadə edən bu əsərin yüksək qiymətləndirilməsi böyük ədəbi uğurdur. Bu nailiyyətin gələcək yaradıcılıq yolunda yeni zirvələrə və daha böyük müvəffəqiyyətlərə vəsilə olacağına inanırıq.

Könül Həsənovaya yeni-yeni uğurlar və davamlı yaradıcılıq arzularımızı bildiririk.

# İqtisadçı Fərhad Ələkbərova diplom təqdim olundu

**Ələkbərov Fərhad Şakir oğlu 10 may 1990-cı ildə Bakı şəhərində anadan olmuşdur. Ailəsi Qərbi Azərbaycanın Dərələyəz mahalının Qalaser kəndindən sonuncu etnik təmizləmə (1987-1991) zamanı yurd-yuvalarından didərgin düşərək Bakının Mərdəkan qəsəbəsində məskunlaşmışdır.**



Fərhad Ələkbərov Mərdəkanda yerləşən H.Z.Tağıyev adına 123 № li tam orta məktəbdə oxumuşdur. Hələ yeniyetmə yaşlarından idmanın kokşinka, cüdo və sambo növləri ilə məşqul olmuşdur. Bir neçə turnirin mükafatçısı və sambo üzrə rayon çempionu olmuşdur.

Vətənə qulluğunu Naxçıvanda N saylı hərbi hissədə, ön cəbhədə etmişdir.

Sumqayıt Dövlət Universitetində “Mühasibat uçotu və Audit” ixtisası üzrə bakalavr təhsili, Azərbaycan Turizm və Menecment Universitetində “Menecment” ixtisası üzrə magistr təhsili almışdır. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (2023-IV kurs) “Beynəlxalq münasibətlər” ixtisası üzrə əlavə təhsilini davam etdirir.

Dövlət Vergi Xidmətində (AUDİT Departamenti) vergi müfəttişi, bir çox yerli şirkətlərdə maliyyəçi və mühasib vəzifələrində çalışmışdır. Hazırda SOCAR "Qaz İxrac" idarəsi, Maliyyə və vergi şöbəsində Aparıcı iqtisadçı vəzifəsində çalışır. Fəaliyyəti dövründə Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanlardan uğurla keçərək Peşəkar Mühasib sertifikatları (PMS-MHBS, PMS-İSMUBS) əldə etmişdir. Azərbaycanın maliyyə sektoruna böyük töhfələr verən, 20 ilə yaxın fəaliyyət göstərən Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) təşkil etdiyi ICFM-in “Professional Maliyyə Meneceri” proqramı üzrə 3 modulu əhatə edən “Diploma in International Financial Reporting Standards”, “Financial Management and Financial Analysis” və “Professional Internal Auditor” təlimlərini bitirib imtahanlarından uğurla keçərək beynəlxalq diplomları əldə etmişdir. Nəticədə, “Professional Maliyyə Meneceri” diplomunu əldə edərək və ICB/ICFM-ə üzv olmuşdur. Fərhad Ələkbərov 2025-ci ilin dekabr ayında APFM AWARDS mükafatına layiq görülmüşdür.

Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli səfiri cənab Fergus Auldun Bakıdakı iqamətgahında keçirilən rəsmi qəbul mərasimində ICB/ICFM Global-ın Baş icraçı direktoru Ami Copeland tərəfindən ICB/ICFM Global beynəlxalq Member sertifikatı təqdim olunmuşdur.



# "Bir Elin Manifesti" müsabiqəsinin qalibləri mükafatlandırıldı





**12 fevral 2026-cı il tarixində Qərbi Azərbaycan İcmasının inzibati binasında "Bir Elin Manifesti" adlı Qərbi Azərbaycan mövzusunda hekayə janrı üzrə Birinci Ümumrespublika Müsabiqəsinin yekunlarına həsr olunmuş tədbir və qaliblərin mükafatlandırılması mərasimi keçirilib.**

Müsabiqə Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının təşkilatçılığı ilə reallaşdırılıb. Layihənin ideya müəllifi Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızıdır. Tərəfdaş qurumlar sırasında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti" və "Modern.az" informasiya agentliyi var.

Məlahət İbrahimqızı çıxışında layihənin uğurla başa çatdığını bildirərək bu təşəbbüsün ədəbi mühitdə əhəmiyyətli hadisə olduğunu vurğulayıb. O. müsabiqənin ərsəyə gəlməsi prosesindən danışıb, əməyi keçən hər kəsə təşəkkürünü bildirib. Millət vəkili "Bir Elin Manifesti" adının təsadüfi seçilmədiyini qeyd edərək burada bir elin ağrılı taleyinin, yurd həsrətinin və tarixi yaddaşının bədii formada ifadə olunduğunu deyib. Deputat təqdim olunan hekayələrin motivlərinə toxunaraq müəlliflərin mövzuya həssas və məsuliyyətli yanaşdığını vurğulayıb, media tərəfdaşlarına, xüsusilə "Modern.az" informasiya agentliyinə dəstəyə görə minnətdarlığını ifadə edib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli layihənin yekun mərasiminin icma üçün əlamətdar hadisə olduğunu bildirib. O, vətən həsrəti anlayışının müxtəlif mərhələlərindən bəhs edərək bədii ədəbiyyatın milli yaddaşın qorunmasında xüsusi rol oynadığını qeyd edib və yazılan hekayələrin gələcəkdə dərsliklərdə yer almasının vacibliyini diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, professor Misir Mərdanov Qərbi Azərbaycanda baş verən hadisələrin uzun illər bədii şəkildə yetərincə qələmə alınmadığını qeyd edib, bu kimi təşəbbüslərin davamlı olmasının zəruriliyini vurğulayıb və müsabiqənin təhsil müəssisələrində də təşviq edilməsini təklif edib.

Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov "manifest" anlayışının ədəbi və ictimai məzmunundan danışaraq "Bir Elin Manifesti" ifadəsinin geniş ideya yükü daşıdığını bildirib. O, müsabiqənin təşkilində Məlahət İbrahimqızının rolunu xüsusi qeyd edib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon İcmasının sədri, professor Mahirə Hüseynova (Nağıqızı) gəncləri yazmağa, öyrənməyə və tarixi yaddaşı qorumağa çağırıb. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı, ekspert Şurasının üzvü Hikmət Babaoğlu isə ədəbi müstəvidə milli mövqenin ifadəsinin əhəmiyyətinə toxunub.

Müsabiqənin şərtlərinə əsasən, 40 yaşadək müəlliflərin daha əvvəl heç bir yerdə çap olunmayan hekayələri təqdim edilib. Münsiflər heyətinin qərarı ilə Qaliblər müəyyənləşdirilib:

I yerin qalibi – İlhamə Nasir qızı Kərimova, "Sonuncu pərdə" hekayəsi,

II yerin qalibi – Könül Nəriman qızı Həsənova, "Əsa" hekayəsi,

III yerin qalibi – Samir Arif oğlu Abdullayev, "Onun adı Lena idi" hekayəsi.

Həvəsləndirici mükafata layiq görülən müəlliflər:

– Həmid Məzair oğlu Piriyev – "Araz da qan rəngindədir, görürsən?"

– Salman Vəli oğlu Balakişiyev – "Gəlinlik donu", "Möcüzə"

– Nurlana Umudvar qızı Məmmədova – "Zəngi çayının səsi"

– Şəmsi Adilxan oğlu Qocayev – "Xərtənin sirri"

Kitabda Mahirə Hüseynova, Musa Quliyev, Sona İsmayılova, Şəmsi Qocayev, Təhminə Verdiyeva, Ramiz Nəsirov, Salman Balakişiyev, Könül Həsənova, Rufik İsmayılov, Xumar Ələkbərova, İlhamə Nasir, Ayşən Məmmədrzayeva, Rəna Haqverdiyeva, Kəmalə Həsənova, Azər Məmmədov, Neymət Rüstəmli, Həmid Piriyev, Samir Abdullayev, Samirə Şükürova, Nehir Akpolat, Polad Poladov, Nurlana Məmmədova, Mirzəfər Qurbanov, Mədinə Hüseynova, Atanur Nəbiyeva, Əli Kaan Əsgər, Mehriban Cəfərova, Zinyət Əhmədova, İlahə Cəfərova, Aysel Məmmədova, Azər Dəmirçiyev və İslam Əlizadə kimi müəlliflər də yer alıblar.

Tədbirdə qaliblərə diplomlar və pul mükafatları təqdim olunub. Müsabiqənin nəticələrinə əsasən seçilmiş hekayələr bir neçə xarici dilə tərcümə edilərək kitab halında nəşr olunub və mərasim çərçivəsində təqdim edilib.

Tədbirin sonunda xatirə şəkilləri çəkdirilib və layihənin gələcəkdə davam etdiriləcəyi bildirilib.

# "Qərbi Azərbaycan - Azərbaycanın əzəli torpaqlarıdır" adlı açıq dərs

**Hacıqabul rayonunda "Qərbi Azərbaycan - Azərbaycanın əzəli torpaqlarıdır" adlı açıq dərs keçirilmişdir.**

13.02.2026-cı il tarixdə Hacıqabul şəhər 10 nömrəli tam orta ümumtəhsil məktəbində Elm və Təhsil Nazirliyinin məsul əməkdaşları Rövşən Ağayev və Hilal Salmanov, Hacıqbul Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Saleh Ələskərov, Qərbi Azərbaycan İcmasının Hacıqabul rayonu üzrə nümayəndəsi Vüsal Nağıyev, Şirvan-Salyan Regional Təhsil İdarəsinin Keyfiyyət Sektorunun müdiri Mahir Zahidov, YAP Hacıqabul Rayon Təşkilatının sədri İsmayıl İbrahimov və Hacıqabul Rayon Təhsil Sektorunun müdiri Bəxtiyar Ələkbərovun iştirakı ilə Qərbi Azərbaycan icmasının idarə heyətinin üzvü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova tərəfindən "Qərbi Azərbaycan - Azərbaycanın əzəli torpaqlarıdır" adlı açıq dərs keçirildi.

Əvvəlcə Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov və tədbir iştirakçıları 10 nömrəli tam orta ümumtəhsil məktəbində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoydular.

"Dərs"in əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Ümummilli lider Heydər Əliyevin və vətənimizin azadlığı, suverenliyi uğrunda canlarından keçən bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Tədbiri giriş sözü ilə açan Hacıqabul şəhər 10 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Samirə Ələkbərova qonaqları salamlayaraq son illər ərzində ümumtəhsil məktəbinin əldə etdiyi nailiyyətlərdən söhbət açdı.

Tədbirdə məktəbin IX- XI sinif şagirdləri və tarix müəllimləri də iştirak etdilər. Qonaqlar iştirakçılara qədim Azərbaycan torpaqları barədə geniş məlumat verdilər. Tədbir tarix yaddaşımız olan Qərbi Azərbaycan haqqında maraqlı fikir mübadiləsi ilə müşayiət olundu. Qərbi Azərbaycana həsr olunmuş bu tədbir əzəli və əbədi torpaqlarımızın keçmişini, bu gününü yaddaşımızda daim yaşatmaq, gələcək nəsillərə ötürmək, milli kimliyimizi qorumağın hər bir vətəndaşın borcu olması fikrini və vətənpərvərlik hissini aşıladı.

Tədbirdə çıxış edən, Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Saleh Ələskərov, Elm və Təhsil Nazirliyinin məsul əməkdaşı Hilal Salmanov və Şirvan - Salyan Regional Təhsil İdarəsinin Tədrisin Keyfiyyət Sektorunun müdiri Mahir Zahidov qeyd etdilər ki, Qərbi Azərbaycanın hər bir rayonu, kəndi, dağı və gölü tariximizin canlı şahididir. Göyçə gölü ətrafında formalaşan zəngin aşıq sənəti, Zəngəzurun qədim yaşayış məskənləri, Dərələyəzin folkloru xalqımızın mədəni xəzinəsinin ayrılmaz hissəsidir. Bu ərazilərdə ucaldılmış məscidlər, karvansaralar və digər tarixi abidələr Azərbaycan xalqının bu torpaqlarda dərin köklərə malik olduğunu sübut edir.

Bizim borcumuz bu tarixi yaddaşı yaşatmaq, gələcək nəsillərə doğru və dolğun şəkildə çatdırmaqdır. Qərbi Azərbaycan mövzusu gənc nəslin vətənpərvərlik tərbiyəsində böyük önəm daşıyır. Şagirdlər bilməlidir ki, bu torpaqların adları sadəcə xəritədə qalan sözlər deyil - onlar xalqımızın taleyinin, xatirələrinin və arzularının bir parçasıdır. Qərbi Azərbaycan bizim yaddaşımızdır. Bu yaddaşı yaşatmaq, gələcək nəsillərə ötürmək və milli kimliyimizi qorumaq hər birimizin borcudur.

Qərbi Azərbaycan icmasının idarə heyətinin üzvü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova dərs zamanı aparılan diskussiyada fəallıq göstərən şagirdlərdən bir neçəsinə Qərbi Azərbaycana həsr olunmuş "Qərbi Azərbaycan: Danışan izlərin işığında" adlı kitablarını hədiyyə etdi.

Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

**Qərbi Azərbaycan ərazisi Bütöv Azərbaycanın tarixində ən qədim və strateji bölgələrdən biridir. Keçmişdə bu diyar Azərbaycanın şimalı ilə cənubunu, eləcə də bütün Qafqaz ilə Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üzərində yerləşirdi.Bu torpaqlar "Ermənistan Respublikası" kimi tanınsa da, tarixi mənbələr və maddi-mədəniyyət nümunələri onun qədim Türk-Oğuz yurdu, Azərbaycan torpağı olduğunu təsdiq edir. Bu ərazidə yerləşən saysız-hesabsız arxeoloji abidələr - qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qala və saray qalıqları, istehkamlar, karvansaraylar, körpülər, qəbirüstü sənduqələr, xaçdaşlar, at-qoç heykəlləri, məbəd və kilsələr, həmçinin məscid, pir və ocaqlar - bölgənin zəngin mədəni irsini göstərir.**

# Qərbi Azərbaycanın İslam Memarlığı Xəzinəsi: Məscidlərimiz

Əcdadlarımızın minilliklər boyu bu ərazidə yaratdığı milli-mənəvi dəyərlər qəddarcəsinə dağıdılmış, acgözlüklə talan edilmiş, xaincəsinə mənimsənilərək onların mühüm bir hissəsi erməni tarixi, mədəniyyəti və folkloru kimi təqdim olunmuşdur.Qərbi Azərbaycan ərazisinin türk mənşəli toponimləri burada yaşamış Azərbaycan türklərinin tarixi, coğrafiyası və mədəniyyəti haqqında dolğun məlumat verir. Toponimlər yalnız coğrafi göstərici deyil, həm də etnik-mədəni yaddaşın daşıyıcısı kimi çıxış edir. Ərazidə inşa olunmuş memarlıq abidələrinin inkişafı iqlim şəraiti, dini-mədəni mühit və sosial-tarixi amillərin təsiri ilə formalaşmış, zaman keçdikcə yerli memarlıq ənənələrinin özünəməxsus xüsusiyyətləri meydana çıxmışdır.

Alban dövrünə aid abidələr tikinti texnikası və istifadə olunan materiallara görə İslam dövrü memarlıq nümunələrindən müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Yerli tikinti materialı olan qırmızı tuf daşından inşa edilmiş abidələrin xarici divarları nisbətən sadə həll olunsa da, giriş portalları və daxili divarları dövrün bədii-estetik üslubuna uyğun olaraq daş üzərində qabarıq yonma üsulu ilə işlənmiş, simvolik məna daşıyan fiqurlarla zəngindir. Bu elementlər həmin dövrün ideoloji və dini təsəvvürlərini əks etdirən mühüm bədii komponentlərdir.İslam dövründə, xüsusilə dağlıq ərazilərdə inşa edilmiş abidələrin bir qismi tuf daşından tikilsə də, bişmiş kərpicdən ucaldılmış tikililər öz memarlıq incəliyi və dekorativ zənginliyi ilə seçilir. Bu abidələr konstruktiv həll, ornamental sistem və kompozisiya baxımından Türk-İslam memarlığının nadir və dəyərli nümunələri kimi qiymətləndirilir.

İrəvan şəhəri klassik Şərq şəhəri kimi formalaşmış, burada qədim qəbiristanlıqlar, at və qoç heykəlli məzar daşları, eləcə də tarixi toponimlər bölgənin azərbaycanlı əhaliyə məxsusluğunu göstərən mühüm maddi sübutlar kimi çıxış etmişdir. Tarixi mənbələrə görə, 1877-1878-ci illərdə İrəvan şəhərində 8, İrəvan mahalında 18, Eçmiədzin qəzasında 17, Sürməli mahalında 18, Şərur-Dərələyəz qəzasında isə 47 məscid fəaliyyət göstərmişdir. "Allah evi" adlandırdığımız məscidlər tarix boyu qədirbilən xalqımız üçün müqəddəs ibadətgah, and yeri və inanc beşiyi olmuşdur. Lakin son 70 ildə bu müqəddəs məbədgahlar, totalitar rejimlərin və düşmən qüvvələrin hücumlarına məruz qalmış, bir çox abidələr uçurulmuş, tarmar edilmişdir. Ermənistana qatılmış qədim Azərbaycan torpaqlarında isə əsrlərin amansız sınağından sağ çıxan bir sıra sənət inciləri XX əsrin müxtəlif faciələri və dağıntıları nəticəsində məhv edilmişdir.

İrəvanda dövlət xərci ilə tikilmiş ilk məscid Şah İsmayılın (1501-1524) əmri ilə 1510-cu ildə inşa edilmişdir. Məscidin geniş həyəti, çarhovuzu və göydələn tipli minarəsi olmuşdur. Daxili məkan xalçalarla bəzədilmişdir. 1918-ci ildə məscidə zorla daxil olaraq, qapısı qıfıllanmış və binaya neft tökülərək yanğına səbəb olmuşdur. İrəvanda inşa edilmiş ilk böyük məscid Səfəvi Məhəmməd şah Xudabəndə (1578-1587) tərəfindən tikdirilmişdir. Məscidin ölçüləri belə olmuşdur: uzunluğu 9 metr, eni 6 metr, hündürlüyü isə 12 metr. Abidənin minarəsi nisbətən alçaq olmuş və bişmiş qırmızı kərpicdən inşa edilmişdir.

Şah Abbas məscidi İrəvan qalasının ərazisində yerləşən və şəhərin maddi-mədəni irsinin mühüm nümunələrindən biri hesab olunan dini-memarlıq abidəsidir. Şah Abbas məscidi yalnız dini ibadət yeri deyil, həm də İrəvanın siyasi-inzibati və mədəni həyatında mühüm rol oynamış monumental memarlıq abidəsi olmuşdur.İrəvan sərdar sarayının yaxınlığında yerləşən məscid kompleks xarakter daşımışdır. Məscidə bitişik mədrəsə binası və ayrıca qonaq otağı mövcud olmuşdur. Geniş həyəti və hovuzu olan bu dini kompleks sosial funksiyalar da yerinə yetirmişdir. Mənbələrdə qeyd olunur ki, məscidin nəzdindəki ehsanlıq tut bağından əsasən yetimlər və fiziki məhdudiyyətli şəxslər istifadə edirmişlər. Bu fakt məscidin yalnız ibadət yeri deyil, həm də sosial yardım mərkəzi kimi fəaliyyət göstərdiyini göstərir.

İrəvan şəhərinin tarixi-mədəni irs nümunələrindən biri Göy məsciddir. Memarlıq formalarının aydınlığı və harmoniyası ilə seçilən bu ibadət kompleksi qış və yay salonlarından, din xadimləri üçün yaşayış otaqlarından ibarət idi. Məscidin ətrafı mədrəsə və müxtəlif yardımçı tikililərlə əhatələnmişdi. Vaxtilə məscidin zəngin kitabxanası fəaliyyət göstərmiş, burada Şərq mütəfəkkirlərinin əsərləri, eləcə də dini məzmunlu kitablar qorunub saxlanılmışdır. Göy məscid nadir sənət incisi hesab olunurdu. Onun bərpasında, kitabəsinin hazırlanmasında və divarlarının bəzədilməsində tanınmış Azərbaycan rəssamı və memarı Mirzə Qədim İrəvaninin mühüm rolu olmuşdur. Məscid iki böyük minarəyə malik idi; biri 35 metr, digəri isə 25 metr hündürlüyündə dördkünc tikilmişdi. XIX əsrdə İrəvana gəlmiş ingilis səyyahı Line isə 1910-cu ildə Tiflisdə çap olunmuş iki cildlik "Ermənistan" əsərində yazır ki, onun gəlişində qüllənin birinin xarabalığı qalmışdı. Bu dövrdə bölgəyə çoxlu erməni ailələri köçürülmüş və onlar türklərə məxsus dini abidələri dağıtmışdılar.Məscidin həyətində böyük hovuz yerləşirdi. 1-1,5 metr hündürlüyündə fəvvarələr hovuzun estetikasını daha da artırırdı. Ziyarətçilər və yerli camaat qənd və ya şərbət əlavə edilən hovuz suyundan istifadə edirdilər. Dövrün görkəmli ziyalıları məscidin kitabxanasında toplanır, elmi mübahisələr aparır və işgüzar müzakirələr edirdilər.

1988-ci ildə Azərbaycanlıların Qərbi Azərbaycandan, o cümlədən İrəvandan deportasiyası zamanı Göy məscid üçüncü dəfə erməni vandalizminin qurbanı olmuş, binaya ciddi ziyan dəymişdir. Hazırda ermənilər bu abidəni "Fars məscidi" adı ilə təqdim edirlər, bu da tarixi saxtalaşdırma və mədəni irsin məkrli dəyişdirilməsinin bir nümunəsi kimi qiymətləndirilir.

İrəvanda dövlət xərci ilə tikilmiş ilk məscid Şah İsmayılın (1501-1524) əmri ilə 1510-cu ildə inşa edilmişdir. Məscidin geniş həyəti, çarhovuzu və göydələn tipli minarəsi olmuşdur. Daxili məkan xalçalarla bəzədilmişdir. 1918-ci ildə məscidə zorla daxil olaraq, qapısı qıfıllanmış və binaya neft tökülərək yanğına səbəb olmuşdur. İrəvanda inşa edilmiş ilk böyük məscid Səfəvi Məhəmməd şah Xudabəndə (1578-1587) tərəfindən tikdirilmişdir. Məscidin ölçüləri belə olmuşdur: uzunluğu 9 metr, eni 6 metr, hündürlüyü isə 12 metr. Abidənin minarəsi nisbətən alçaq olmuş və bişmiş qırmızı kərpicdən inşa edilmişdir.

İrəvanda azərbaycanlılara məxsus digər maddi-mədəni irs nümunələri kimi, Abbas Mirzə məscidi də zaman keçdikcə sistemli şəkildə dağıdılmış və tədricən məhv edilmişdir. İrəvan qalasının daxilində, Sərdar sarayının yaxınlığında yerləşən məscid - həm "Sərdar məscidi", həm də "Abbas Mirzə məscidi" adları ilə müxtəlif dövrlərdə səyyahların və tədqiqatçıların əsərlərində qeyd edilmişdir. Araşdırmalar göstərir ki, fərqli adlar istifadə olunmasına baxmayaraq, əslində söhbət son dövrlərin tədqiqatlarında və rəsmi sənədlərdə unikal memarlıq nümunəsi kimi tanınan eyni məsciddən gedir. Yəni, məscid tarix boyu müxtəlif adlarla xatırlanmışdır.

Çar Rusiyasının İrəvan qalasını işğal etdiyi dövrə aid bəzi sənədlərdə məscid "Abbas Mirzə məscidi" kimi qeyd olunur. Bu, ehtimal olunur ki, XIX əsrin əvvəllərində taxt-tacın varisi Abbas Mirzə tərəfindən yenidən inşa edildiyi üçün baş vermişdir. Lakin İrəvanda azərbaycanlılara məxsus digər mədəni irs nümunələri kimi, Abbas Mirzə məscidi də tədricən erməni vandalları tərəfindən məhv edilmişdir.1864-cü ildə rus qoşunları İrəvan qalasının hərbi istehkam kimi istifadəsinə son qoyduqdan sonra qaladakı tarixi-memarlıq abidələri, o cümlədən Sərdar (Abbas Mirzə) məscidi ciddi dağıntılara məruz qalmışdır. XX əsrin əvvəllərində məscidə Türkiyədən gəlmiş erməni qaçqın ailələri yerləşdirilmişdir. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi tədricən söküldü.

XXI əsrin əvvəllərində məscidin yalnız 2-3 metr hündürlüyündə divar qalıqları mövcud idi.1928-ci ildə Azərbaycan arxeoloqu və epiqrafika üzrə mütəxəssis İsa Əzimbəyov İrəvanda elmi səfərdə olmuşdur. Onun sözlərinə görə, məscidin geniş həyəti var idi və həmin həyətin ortasında hovuz yerləşirdi. Lakin ibadət artıq həyata keçirilmirdi və həyət ərazisində bir neçə erməni qaçqın ailəsi məskunlaşmışdı.2007-ci ildə Ermənistan hökuməti məscidin xarabalıqlarının görünən hissəsini fotoşəkillərlə Avropa Şurasına "qorunan tarixi abidələr" siyahısına təqdim etmişdir. Lakin buna baxmayaraq, 2014-cü ilin noyabr ayında erməni vandalları Sərdar məscidinin qalan "qorunan" divarını da tamamilə dağıtmışdır. Hazırda həmin ərazidə "Qlendale Hills" tikinti şirkəti 14 mərtəbəli 18 bloklu yaşayış kompleksi inşa etmişdir

İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yerləşən Dəmirbulaq məscidi XVII-XVIII əsrlərə aiddir. Məscid binasının üstündəki günlüyə görə "Günlüklü məscid" və eyni zamanda "Çətirli məscid" adları ilə tanınmışdır. Bu ibadətgah İrəvanın varlı şəxslərindən olan Hacı Müzəffər Ağa tərəfindən tikdirilmişdir.Məscidin minarəsi yoxdur; onun yerinə binanın damında açıq havada 1,5-2 metr hündürlüyündə kvadrat formalı meydança inşa edilmişdir. 1988-ci ilə qədər fəaliyyət göstərən və şəhərin dindar müsəlmanlarına xidmət edən məscid 1988-ci ilin fevral ayının 23-də radikal erməni millətçilərinin hücumuna məruz qalmış, talan edilmiş və yandırılmışdır.Dəmirbulaq məscidi 1990-cı ildə tamamilə dağıdılmış, onun yerində isə müasir yaşayış binası tikilmişdir.

Təpəbaşı məscidi İrəvan şəhərinin Təpəbaşı məhəlləsində yerləşirdi. Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı illərdə uçmuşdur. Məscidin divarları təxminən 1,5 metr qalınlıqda idi. Hazırda məscidin içərisində, imamın otağı olaraq istifadə olunan hissədə bir erməni ailəsi yaşayır.Ətrafında əvvəllər bir çayxana mövcud idi və müsəlmanlar orada toplaşaraq çay içirdilər, lakin bu çayxana artıq mövcud deyil. Məscidin həyətində və yaxınlığında ermənilər tərəfindən gecəqondular inşa edilmişdir.Bəzi mənbələrə görə, məscidi İrəvan şəhər idarəsinin (upravasının) üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə yerləşirdi. Hazırda dağıdılmış vəziyyətdə olan bu ev hələ də ermənilər tərəfindən "Xanın evi" adlandırılır.

İrəvanın Qala ilə Təpəbaşı massivləri arasında yerləşən, "Köhnə şəhər" adlanan ərazidə bir məscid mövcud idi ki, onu Şəhər məscidi və ya Zal xan məscidi adlandırırdılar. Şəhər məscidi həcminə görə Göy məsciddən kiçik olsa da, memarlıq baxımından çox gözəl olmuşdur.

Alim H. Linçin məlumatına görə, Şəhər məscidinin üzərində ərəb əlifbası ilə türk dilində hicri tarixi ilə 1098-ci ildə, yəni miladi təqvimlə 1687-ci ildə inşa edildiyi qeyd olunmuşdur.Memarlıq üslubuna görə, Zal xan məscidi Göy məscidə bənzəyirdi. Məscidin həyəti dincəlmək üçün nəzərdə tutulmuş sərin bağça ilə əhatələnmişdi.Bu məscid İrəvan şəhərinin mərkəzində, indiki Respublika meydanı ərazisində yerləşmişdir.1928-ci ildə Şəhər məscidinin böyük zalı söküIməş və onun yerində "Yerevan Hotel" inşa edilmişdir. 1999-cu ildə otel yenidən qurulmuş və hazırda "Golden Tulip Hotel Yerevan" adı ilə fəaliyyət göstərir.

Əkərək kənd məscidi memarlıq və tikinti baxımından digər məscidlərdən fərqlənirdi. Binanın konstruksiyası çay və qayadar daşları ilə, kərpicdən və ağ əhənglə qurulmuşdur. Məscidin çoxlu pəncərələri mövcud idi və o, iki əsas bölmədən ibarət idi. Məscidə bitişik hücrə də yerləşirdi.Məscid yalnız ibadət üçün deyil, eyni zamanda funksional məqsədli mərkəz rolunu da yerinə yetirirdi: vəfat etmiş şəxslərin dəfn mərasimləri, ailə həyatı qurmaq üçün kəbin mərasimləri, Quran oxumağı və dini təlim vermək, sosial fərqlilikləri aradan qaldıran yenidənqurma və reabilitasiya mərkəzi funksiyası.

Hazırda Əkərək kənd məscidinin damı tamamilə dağıdılmış, yalnız kənar divarların xarabalıqları qalıb. İslam mədəniyyət irsi olduğu üçün ermənilər tərəfindən təmir və bərpa işləri aparılmamışdır. Əksinə, tikinti üçün istifadə edilə bilən hissələr sökülmüş, kənd sakinləri iri daşları həyətyanı divar tikintisi üçün istifadə etmişdir.

Ağadədə məscidi Qarasu çayının kənarında olduğundan, tikintidə çay və qayadar daşlardan istifadə edilmiş, üzəri isə ağ torpaqla suvanmışdı. Təxmini ölçülərinə görə, məscidin eni 5 metr, uzunluğu 8 metr, hündürlüyü isə 3,5 metr idi. Məscid əsasən dəfn mərasimləri və müsəlmanların dini bayramları zamanı xüsusi fəallıq göstərirdi.1987-1991-ci illərdə baş verən deportasiya prosesində ermənilər yalnız azərbaycanlı əhaliyə qarşı zorakılıq etməklə kifayətlənməmiş, həmçinin bir neçə yüzillik tarixi olan azərbaycanlılara aid maddi-mədəni irs nümunələrinin çoxunu da məhv etmişlər. Bu vandallıq aktları zamanı Ağadədə məscidi də yanaraq dağıdılmışdır.

Amasiya rayonunun Balıqlı kəndində yerləşən Balıqlı məscidi digər məscidlərdən fərqli arxitektura xüsusiyyətlərinə malikdir. Məscidin təxmini ölçüləri belədir: uzunluğu 8 metr, eni 4 metr. Divarların tikintisində dördkünc kəsilmiş ağ, boz, göy və qırmızı daşlar istifadə olunmuşdur ki, bu da məscidin həm daxili, həm də xarici görünüşünə xüsusi estetik gözəllik qatır.Məscid ev memarlığı üslubunda və müasir qaydada inşa edilmişdir. Arxa sağ və sol tərəfdə yuxarı hissədə oval formalı iki pəncərə yerləşir, qabaq tərəfdə isə bir pəncərə və geniş giriş qapısı mövcuddur. Pəncərənin iç və xarici hissəsində alt hissədə tünd sarı mərmər daşlardən istifadə edilmişdir.1987-1991-ci illərdə azərbaycanlıların kütləvi deportasiyasından sonra, məscid müsəlman abidəsi olduğu üçün ermənilər tərəfindən dağıdılmışdır.

Sərtib xan məscidi İrəvan şəhərinin Şəhər hissəsində, Şeyxülislam küçəsində yerləşmiş dini abidələrdən biri olmuşdur. Bu məscid Dəmirbulaq məhəlləsində XIX əsrin əvvəllərində Məhəmməd Sərtib xan tərəfindən inşa etdirilmişdir.

Məscid sonrakı dövrdə indiki Hanrapetutyan küçəsi 73 ünvanında, Xaçik Daştens adına 114 nömrəli məktəbin yerləşdiyi ərazidə mövcud olmuşdur. Abidənin kiçik ölçülü minarəsi var idi və mədrəsə ilə birlikdə vahid dini-təhsil kompleksi təşkil edirdi. XX əsrin ortalarınadək tikili qismən qorunub saxlanılsa da, sonrakı illərdə tamamilə dağıdılmış və izləri aradan qaldırılmışdır.

İrəvan şəhərinin qədim şiə məscidlərindən biri hesab edilən Novruzəli bəy məscidinin dəqiq inşa tarixi məlum deyil. Lakin memarlıq üslubuna əsaslanan bəzi tədqiqatçılar bu abidəni XIV əsrə aid edirlər. Başqa bir fikrə görə isə, məscid XVII əsrin ikinci yarısında inşa olunmuşdur. Eyni zamanda, XVIII əsrin ikinci yarısında Qara Seyid adlı bir şəxs tərəfindən tikildiyini göstərən məlumatlar da mövcuddur.

Məscid bir minarəli olmuş, əsas ibadət zalı iri günbəzlə örtülmüşdür. Xarici divarları rəngli kaşılarla bəzədilmiş, memarlıq baxımından dövrünün dini tikililəri arasında seçilmişdir. O, İrəvanın tarixi Şəhər (Şəhri) massivinin Novruzəli məhəlləsində yerləşirdi. Görünüş baxımından Zal xan məscidinə bənzəsə də, ölçü etibarilə ondan bir qədər kiçik idi.1918-1920-ci illərdə bölgədə baş verən siyasi hadisələr zamanı və sovet hakimiyyətinin ilk illərində məscid binasından yaşayış məqsədilə istifadə olunmuş, Türkiyədən köç etmiş erməni qaçqınları burada məskunlaşdırılmışdır. Həmin dövrdə şəhərdəki digər məscidlər - Sərdar, Təpəbaşı və Sərtib xan məscidləri də oxşar taleyi yaşamışdır.

1920-1930-cu illərdə İrəvanın yeni baş planı hazırlanarkən şəhər mərkəzində yerləşən azərbaycanlılara məxsus bir sıra tarixi-memarlıq abidələri sökülmüş, onların yerində yaşayış binaları, meydanlar və parklar salınmışdır. Novruzəli bəy məscidi də bu proses nəticəsində dağıdılan abidələrdən biri olmuşdur. XX əsrin birinci yarısında ciddi zədələnmiş, 1950-ci illərdən sonra isə tamamilə aradan qaldırılmışdır.

Yuxarıda sadalanan faktlar göstərir ki, təkcə İrəvan şəhərində deyil, bütövlükdə hazırda Ermənistan Respublikası adlanan ərazidə azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinə və maddi-mədəni irs nümunələrinə qarşı ciddi dağıntılar həyata keçirilmişdir. Azərbaycan Respublikasında isə, o cümlədən Bakı şəhərində xristian icmasına məxsus dini və tarixi abidələr dövlət tərəfindən rəsmi qaydada qeydiyyata alınaraq qorunur. Paytaxtın mərkəzində yerləşən Müqəddəs Qriqor Lusavoriç kilsəsi dövlət mühafizəsində saxlanılan belə abidələrdən biridir.

Ermənistan ərazisində 1988-1989-cu illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasətindən sonra isə onlara məxsus maddi-mədəni irs nümunələrinin bir qismi tamamilə məhv edilmiş, bir qismi isə mənşəyi təhrif olunaraq başqa xalqların irsi kimi təqdim edilmişdir.



*Əsmər Əhədzadə*

**18 fevral 2026-cı il tarixində Qərbi Azərbaycan İcmasında Keşkənd və Paşalı rayon İcmalarının üzvləri ilə geniş tərkibli görüş keçirilib.**

# Qərbi Azərbaycan İcmasında Keşkənd və Paşalı Rayon İcmaları ilə geniş tərkibli görüş keçirilib







Toplantıda 2025-ci il üzrə görülmüş işlərin hesabatı təqdim olunub, 2026-cı il üçün prioritet istiqamətlər və fəaliyyət planı müzakirə edilib.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Dərələyəz mahalında həyata keçirilən təşkilati, elmi və ictimai fəaliyyətlərin ardıcıl şəkildə davam etdirildiyini bildirib. O, İcma strukturunun daha sistemli və nəticəyönümlü fəaliyyət göstərməsinin vacibliyini vurğulayaraq, məhsuldarlığın artırılmasının və strateji hədəflərə mərhələli şəkildə nail olunmasının əsas prioritetlərdən olduğunu qeyd edib. Sədr, cənab Prezidentin "Biz qayıdacağıq" çağırışını xatırladaraq, qayıdış ideyasının reallaşması üçün təşkilatın maddi-texniki və mənəvi baxımdan daha da möhkəmləndirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Leyla Calalova yubileyi münasibətilə İcma sədri tərəfindən "Fəxri fərman"la təltif olunub.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon icmasının sədri, professor Mahirə Hüseynova (Nağıqızı) çıxışında 2025-ci il ərzində görülmüş işlər barədə hesabat təqdim edib. O, icma daxilində birliyin möhkəmləndiyini və fəaliyyətin daha sistemli əsasda qurulduğunu bildirib. Eyni zamanda, Dərələyəz mahalında Keşkənd və Paşalı rayonlarının kəndlərinə həsr olunan kitabların hazırlanması prosesinin gedişi barədə məlumat verərək, arxiv materiallarının toplanması və faktoloji bazanın zənginləşdirilməsi istiqamətində işlərin davam etdiyini qeyd edib. 2026-cı il üçün nəşr prosesinin sürətləndirilməsi və elmi redaktə mərhələsinin tamamlanması ilə bağlı təkliflərini səsləndirib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Paşalı rayon icmasının sədri, Əkinçilik Elmi Tədqiqat İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Faiq Xudayev 2025-ci ildə görülmüş işləri təhlil edərək strukturlaşma və koordinasiya sahəsində əldə olunan nəticələri diqqətə çatdırıb. O, 2026-cı ildə icmalararası əməkdaşlığın genişləndirilməsi, kənd İcmaları ilə əlaqələrin daha sistemli qurulması və məlumat bazasının təkmilləşdirilməsi istiqamətində təkliflərini irəli sürüb.



İcmanın Qadınlar Şurasının sədr müavini, Qərbi Azərbaycan Televiziyasının rəhbəri, əməkdar mədəniyyət işçisi Telli Pənahqızı çıxışında Keşkənd və Paşalı rayon İcmalarının üzvlərini Qərbi Azərbaycan Televiziyasına dəvət edib. O, rayonların adət-ənənələri, tarixi irsi və deportasiya faktları ilə bağlı silsilə verilişlərin hazırlanmasının vacibliyini vurğulayaraq, İcma üzvlərinin canlı çıxışlarla bu mövzuların ictimaiyyətə çatdırılmasına töhfə verməsinin əhəmiyyətini qeyd edib.

Daha sonra Keşkənd və Paşalı rayonlarının kənd icmalarının sədrləri çıxış edərək 2025-ci ildə görülən işləri müsbət qiymətləndiriblər. Onlar yerli səviyyədə təşkilatlanmanın gücləndirilməsi, gənclərin proseslərə daha fəal cəlb olunması, kəndlər üzrə tarixi-mədəni irsin sistemli şəkildə sənədləşdirilməsi və gələcək nəşrlər üçün materialların toplanması ilə bağlı təkliflərini səsləndiriblər.

Görüşün sonunda xatirə şəkli

# Qardaş ölkədə yaşayan Qərbi azərbaycanlı uzman həkim Turqut Sultanov

***Sultanov Turqut Neymət oğlu 30 iyun 1994-cü ildə Naxçıvan MR, Şərur rayonu Mahmud kəndində anadan olmuşdur.***

Ata babası Qərbi Azərbaycanın Dərələyəz mahalının Çivə kəndindən olan Əhməd bəy Vəkilovun (sonradan Sultanov soyadını götürmüşdür) ailə üzvləri sovet rejimi dövründə təzyiqlərə məruz qalmışdır. Qardaşı Əli bəy Vəkilov repressiya qurbanı olmuş, digər qardaşı Həsənalı Sultan bəy Vəkilov isə mühacirətə getməyə məcbur qalmışdır. Bu səbəbdən Əhməd bəy ailəsi ilə birlikdə Şərur rayonunda məskunlaşmış və soyadını dəyişmişdir.

Turqut Sultanov (Vəkilov) 2001-ci ildə Mahmud kənd tam orta məktəbinin birinci sinfinə qəbul olmuş, 2008-ci ildə



isə yüksək göstəricilərlə Şərur Türk Liseyinə daxil olmuşdur. Liseydə təhsil aldığı illərdə Amerika Birləşmiş Ştatlarında (Nyu-York) və Nigeriyada (Abuja) keçirilən beynəlxalq elm olimpiadalarında iştirak etmiş, Platin, Gümüş və Bürünc medallara layiq görülmüşdür. 2012-ci ildə liseyi bitirmişdir.




O, Türkiyə və Azərbaycan tibb universitetlərinə sənəd vermiş, imtahan nəticəsinə əsasən 646 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə İşi ixtisasına və eyni zamanda TCS (Türkiyə Cumhuriyəti Sınavı) imtahanından uğurla keçərək Türkiyə Respublikasının Adana şəhərində yerləşən Çukurova Universitetinin Tibb Fakültəsinə qəbul olmuş və ödənişsiz əsaslarla təhsil almışdır.

Hazırda Adana Şəhər Xəstəxanasının Pediatriya şöbəsində uzman həkim kimi fəaliyyət göstərir.

# Qərbi Azərbaycan əsilli çempion Emil Novruzov



**Emil Novruzov 8 dekabr 1995-ci ildə Bakı şəhərində anadan olub, əslən Qərbi Azərbaycanın Göyçə mahalının Mollalı kəndindəndir. Atasının nənəsi Göyçə mahalının Ağkilsə kəndindən, ana babası Vedi rayonunun Şirazlı kəndindən, ana nənəsi və ata nənəsi Dərələyəz mahalı Çivə kəndindəndir. Ailəsi 1948-1953-cü illər deportasiyası zamanı Bərdə rayonunun İmirli kəndi və Ağdaş rayonuna köçürülmüşlər.**

2002-ci ildə Abdulla Şaiq adına 54 saylı tam orta məktəbin birinci sinifə getmiş, 2013-cü ildə oranı bitirmişdir. 2014-2018-ci illərdə Moskva şəhərinin Balaşixa rayonunda yerləşən V.İ.Vernadski adına Universitetdə təhsil alıb. Peşəkar boksun birinci orta (Light Middleweight) dərəcəsində çıxış edərək Azərbaycanı Rusiya və bir çox ölkələrdə təmsil edən boksçumuzdur.

Müxtəlif beynəlxalq görüşlərdə ermənı rəqiblər üzərində qələbələr qazanaraq ölkəmizi uğurla təmsil etmiş, dövlət bayrağımızı zirvələrə ucaltmışdır.

44 günlük Vətən müharibəsi dövründə əldə etdiyi qələbəni şəhidlərimizin əziz xatirəsinə həsr etməsi təşkilatda böyük səs-küyə səbəb olmuşdur. Daha sonra həmin təşkilatın bu məqamla bağlı kadrları paylaşmaması Emilin etirazına səbəb olmuşdur. Bir neçə ay danışıqlar və mübahisələr getdikdən sonra Emil kadrları əldə edib "Hardcore fighting" təşkilatını tərk etmişdir. Nəticə etibarilə, Emil onlarla mübahisələr aparmış və 2022-ci ilin sentyabr ayına kimi təklif olunan döyüş görüşlərini rədd etmişdir.

2022-ci il sentyabr ayının 24-də erməni əsilli Martin Juaryan adlı rəqiblə "Hardcore boxing" təşkilatında mübarizə aparıb qələbə qazanaraq, "Hardcore Fighting" kəmərini əldə edərək bayrağımızı ucaltmışdır.

"Hardcore boxing" dünya lisenziyası alaraq Hardcore Boxing Assosiaction adı ilə təsdiqləndikdən sonra Birləşmiş Ərəb Əmirliyində Ajenda Arenada təşkil olunan Beynəlxalq Peşəkar boks turnirində eks Venesuella çempionu Yeyson Gonzales üzərində 2-ci raundda texniki nokautla qələbə qazanmış, HBA dünya kəmərini əldə etmişdir.

2023-cü il 23 avqustda 14000 nəfərlik CSKA Arenada Qarabağ ansamblı ilə rəqs etmiş, bu performansı ilə bütün pərəstişkarlarının marağına səbəb olmuşdur. Qərbi Afrikanın eks çempionu Richard Fenyi ilə döyüşdə rəqibini bir neçə dəfə nokdaunta göndərimiş, xal hesabı ilə qalib gələrək HBA kəmərini qorumuşdur.

O, Hardcore Boxing Association (HBA) üzrə dünya çempionudur, Hardcore FC Qran-Prisinin 93 kq-dək Universal çəkidə ilk finalçısı, həmçinin birinci Hype Fighting Qran-Prisinin finalçısıdır.

2023-cü il 11 oktyabrda məğlubiyyətsiz qırğız döyüşçüsü Səməd Əbdülrəhmanov üzərində qələbə çalaraq 70 kq çəki dərəcəsində Hardcore FC (bareknuckle) yumruq döyüşü üzrə dünya kəmərinə layiq görülüb.

2024-cü il 28 sentyabrda Qazaxıstanın Almatı şəhərində Allstars boxing təşkilatında WBS international kəməri uğrunda Taylandlı Boksyor Atchariya Wirojanasunobol üzərində birinci raundda nokautla qələbə qazanaraq daha bir dünya kəmərinin sahibi olmuşdur.

Səməd Əbdülrəhmanov "Sən təsadüfən udmusan" ittihamı ilə Emilə qisas döyüşü təklif edir. Səməd və İBA təşkilatı Emilin belində zədə olduğunu bildiyi üçün onun məğlub olacağını düşünürdü. 2025-ci ildə yeni təşkilat İBA təşkilatı da Səmədlə eyni fikirdə olsa da, planları baş tutmadı. Emil rəqibini 1-ci raundda 3 dəfə nokdaunta göndərərək tam üstünlüklə qalib gəldi.

# " Gənclər günü - Bir Qərbi Azərbaycan gənci kimi! "

**Bu gün gənclik yalnız zamanın verdiyi bioloji üstünlük deyil, tarixin verdiyi məsuliyyətdir. Xüsusən də, Qərbi Azərbaycan yaddaşı ilə böyüyən bir gənc üçün gənclik anlayışı daha mürəkkəb, daha çoxqatlı və daha ağır mənalar daşıyır. Çünki bu gənclik rahat unudulan xatirələr üzərində deyil, zorla qoparılmış torpaqların, yarımçıq qalmış həyatların və susdurulmuş talelərin üzərində formalaşıb. Burada gənc olmaq yalnız gələcəyə baxmaq deyil, eyni zamanda keçmişi daşımaqdır.**

Qərbi Azərbaycan gəncliyi tarixi hadisələri yalnız arxiv sənədlərindən öyrənən bir nəsil deyil. O bu tarixi ailə yaddaşında, şifahi xatirələrdə, danışılmayan sükutlarda, dəyişdirilmiş yer adlarında və qorunmağa çalışılan mədəni izlərdə yaşayaraq mənimsəyib. Bu yaddaş ona hazır ideologiya kimi yox, sual verən, düşünməyə vadar edən və mövqe formalaşdıran bir təcrübə kimi ötürülüb. Məhz buna görə bu gənclik hadisələrə emosional reaksiya ilə kifayətlənmir, səbəbləri, mexanizmləri və nəticələri anlamağa çalışır.

Bu nəsil üçün tarix donmuş keçmiş deyil. Tarix, bu günün özünü dərketmə vasitəsidir. Qərbi Azərbaycanda baş verən deportasiyalar, etnik təmizləmələr və mədəni irsin sistemli şəkildə məhv edilməsi gənc şüurda yalnız faciə kimi deyil, öyrənilməli, araşdırılmalı və elmi əsaslarla izah edilməli proses kimi qəbul olunur. Bu yanaşma gənci emosional yaddaş daşıyıcısından intellektual mövqe sahibinə çevirir. Beləliklə, gənclik tarix qarşısında passiv şahid deyil, onu şərh edən və gələcək üçün nəticələr çıxaran subyektə çevrilir.

Gənclər günü bu kontekstdə sadəcə bayram deyil, bir düşüncə məqamıdır. Bu gün gənclik özünə sual verir: biz bu yaddaşla nə edirik, onu necə qoruyur, necə ötürür və necə mənalandırırıq? Qərbi Azərbaycan gənci üçün cavab aydındır: yaddaş yalnız xatırlamaq üçün deyil, gələcəyi qurmaq üçündür. Mədəniyyət, dil, tarix və kimlik anlayışları yalnız qorunan miras deyil, yenidən istehsal olunan dəyərlərdir. Gənclik bu dəyərləri müasir elmi, sosial və mədəni diskurslara daxil etməklə onları zamanın fövqündə saxlayır.

Bu gənclik nə nostalgiyaya qapanır, nə də keçmişi ideallaşdırır. O, tarixi reallığı olduğu kimi qəbul edir və ondan nəticə çıxarmağı bacarır. Qərbi Azərbaycan gənci üçün əsas məsələ keçmişə qayıtmaq deyil, keçmişi gələcəyin mənəvi və intellektual dayağına çevirməkdir. Bu baxımdan o, həm yaddaşın qoruyucusu, həm də gələcəyin qurucusudur.

Bu yol asan deyil. Çünki yaddaş yükü ağırdır, məsuliyyət isə ikiqatdır: həm öz kimliyini qorumaq, həm də onu gələcək nəsillərə təhrif olunmadan ötürmək. Lakin məhz bu çətinlik Qərbi Azərbaycan gəncinin düşüncə tərzini formalaşdırır, onu səthi yox, dərin düşünməyə vadar edir. Bu gənclik üçün güc fiziki imkanlardan çox, intellektual mövqedə, mədəni davamlılıqda və tarixi şüurda təcəssüm olunur.

Beləliklə, Gənclər günü Qərbi Azərbaycan gənci üçün sadəcə yaşın bayramı deyil. Bu gün yaddaşla gələcəyin kəsişdiyi, tarixi məsuliyyətin gənclik enerjisi ilə qovuşduğu bir məqamdır. Bu, susdurulmuş keçmişin düşünən gələcəkdə yenidən sözə çevrildiyi gündür.

Bu yazını qələmə alarkən mən özümü yalnız müşahidəçi və ya araşdırmaçı kimi deyil, bu yaddaşın bir parçası, bu tarixi məsuliyyətin daşıyıcısı kimi dərk edirəm. Qərbi Azərbaycan mənim üçün təkcə keçmişin coğrafiyası deyil, bugünkü düşüncəmin, mövqeyimin və gələcəyə baxışımın formalaşdığı mənəvi məkandır. Mən bu yaddaşı nostalji üçün yox, onu gələcəyin intellektual və mədəni dayağına çevirmək üçün yaşadıram. Gənc olaraq üzərimə düşən vəzifənin yalnız xatırlamaq deyil, anlamaq, araşdırmaq və ötürmək olduğuna inanıram. Çünki bu yaddaş mənim üçün yük deyil, kimliyimin əsas sütunudur və mən bu sütun üzərində sabaha doğru inamla addımlayıram.



*Nigar Xanəliyeva*




## Dərələyəz

Həsrətdən bilmirəm nə yazım sənə,
Qəlbimi bürüyüb qəm, Dərələyəz.
Sanki Alagözün bulaqlarından
Düşüb gözlərimə nəm, Dərələyəz.

Bizsiz şənlənib də gülürsənmi sən?
Vüsal xəyalına dalırsanmı sən?
Unutdun, yoxsa ki bilirsənmi sən —
Səni ən çox sevən kim, Dərələyəz?

Taley elə gələr, baxtda dəyişər,
Dövran da dəyişər, taxtda dəyişər,
Zaman da dəyişər, vaxtda dəyişər,
Doğar sevinc dolu dəm, Dərələyəz.

İnşallah, düzələr növrağımız da,
Gülüb oynayarıq öz bağımızda.
Tarixən yadigar ocağımızda
Biz də yandırarıq şam, Dərələyəz.

## Göyçə

Nə yaman dağlayır həsrətin məni,
Yanıb, kül oluram, nə yaman, Göyçə!
Ayrılıq çağları didir ömrümü,
Qəmin vermir mənə heç aman, Göyçə.

Qovuşmaq eşqiylə döyünür qəlbim,
Vətənə qovuşmaq ən böyük əhdim.
Bu işi haqq bilir yaradan Rəbbim,
Dönmək arzumuza sən inan, Göyçə.

Dağında, daşında gəzəndə asta,
Olmaz ilham pərim o zaman yasda.
Babam Ələsgərin məzarı üstə
Gəlib oxuyaram mən Quran, Göyçə.

Gölündə durnana heyrətlə baxıb,
Gözümdəki yaşım boynuna axıb.
Daha bu günləri dalda buraxıb,
Səndə yurd salarıq bir zaman, Göyçə.

# Sumqayıt hadisələrinin günahsız qurbanı

## ETNİK MÜNAQİŞƏNİN HAZIRLANMASINDA SUMQAYIT HADİSƏLƏRİNİN ROLU

*(Sumqayıt hadisələrinin günahsız qurbanı Əhməd Əhmədovun xatirəsinə həsr edilir)*

Ermənistanda azərbaycanlılara qarşı sonuncu etnik təmizləmə mərhələsindən danışarkən Sumqayıt hadisələrindən yan keçmək mükün deyil. SSRİ xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən düşünülmüş şəkildə təşkil olunmuş bu hadisədən erməni lobbisi ciddi şəkildə istifadə etmişdir. Hadisənin məqsədi erməni xalqı ilə Azərbaycan xalqının bir yerdə yaşamasının qeyri-mükünlüyü fikirini yaratmaq və Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-yə birləşdirmək məqsədi daşıyırdı. Sumqayıt hadisələri əsasən 26-29 fevralda Sumqayıt şəhərində kütləvi iğtişaş, zorlama qətllər və qarətlərlə müşayiət olunmuşdur. Hadisənin "qəhrəmanı" isə erməni millətindən olan Eduard Qriqoriyan idi. SSRİ xüsusi xidmət orqanının təşkil etdiyi bu təxribatı ustalıqla icra edən E.Qriqoriyanın sonradan SSRİ hökuməti tərəfindən himayə edilməsi bu faktı bir daha təsdiq edir.

Sumqayıt hadisələri haqqında Azərbaycan Prezidentinin açıqlaması.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Heç kim üçün sirr deyil ki, Sumqayıt hadisələrinin erməni millətçiləri törətmişdir. Bu onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idi. Məqsəd də aydındır ki, bu hadisələrdən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürülsün, ondan sonra azərbaycanlılara qarşı soyqırımı ittihamı əsaslandırılsın"

(Sitat İlham Əliyevin 10 may 2012-ci il tarixində Heydər Əliyev Mərkəzinin açılışındakı çıxışından götürülmüşdür)

## ERMƏNİ QAYNAQLARINDA SUMQAYIT HADİSLƏRİ

SSRİ xüsusi xidmət orqanlarının Azərbaycan xalqına qarşı hazırladığı Sumqayıt təxribatı erməni mənbələrində "Sumqayıt qırğınları" kimi təqdim edilir. Onlar qeyd edirlər ki, 27-29 fevral 1988-ci ildə Sovet Azərbaycanının Sumqayıt şəhərində Azərbaycan hakimiyyətinin dövlət səviyyəsində təşkil etdiyi Sumqayıt qırğınları, şəhərin erməni əhalisinin soyqırımı və kütləvi deportasiyası məqsədi daşıyır. Erməni millətinə qarşı törədilən bu cinayətin məqsədi erməniləri yeni qanlı aksiyalar perspektivi ilə qorxutmaqla Artsax hərəkatının qarşısını almaq, Artsax azadlıq mübarizəsinin yayılmasının qarşısını almaq idi. Qırğın təşkilatçılarından biri kimi Sovet Azərbaycanının partiya xadimi Məhəmməd Əsədovun(Azərbaycanın şəhid Daxili İşlər naziri Məhəmməd Əsədov nəzərdə tutulur) guya ermənilərdən qisas almaq məqsədi daşıdığın bildirirlər.

## ERMƏNİLƏRİN SUMQAYIT HADİSƏLƏRİNƏ GÖRƏ GÜNAHLANDIRDIQLARI MƏHƏMMƏD ƏSƏDOV KİMDİR?

Məhəmməd Nəbi oğlu Əsədov 5 dekabr 1941-ci ildə Zəngilan rayonunun Baharlı kəndində anadan olub. Baharlı kəndində dördüncü sinfi, Mincivan qəsəbəsində isə tam orta məktəbi bitirmişdir (1958). O, 1960-cı ildə Bakı Statistika Texnikumunu bitirib. 1961-1964-cü illərdə ordu sıralarında xidmət edib. 1964-cü ildə Sumqayıt şəhərində 1 saylı trestdə betonçu işləyib. 1965-ci ildə Azərbaycan Dövlət universitetinin "Maliyyə və kredit" fakültəsinə daxil olub sonra həmin fakultə Xalq Təsərrüfatı İnstitutuna verildiyi üçün oranı bitirb. M.Əsədov 1968-1975-ci illərdə Sumqayıt Şəhər Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Sonra M. Əsədov Moskva Təhlükəsizlik Akademiyasında təhsil alaraq Azərbaycan Təhlükəsizlik Nazirliyində məsul vəzifədə çalışıb. 1983–1986-cı illərdə Beyləqan (Jdanov) Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləyib. O, 1986–1988-ci illərdə Mərkəzi Komitədə yüksək vəzifədə işləyəndə dəfələrlə Xankəndiyə gedib. Oradan qayıdanda belə fikir söyləyib: " Xankəndində elə bil Azərbaycan hökuməti yoxdur, ermənilər necə istəyir o cür də hərəkət edirlər"

Sumqayıt hadisələri zamanı M.Əsədov Mərkəzi Komitənin (1986-1988) inzibati orqanlar şöbəsinin müdiri vəzifəsində çalışıb. O, 1990-cı ilin may ayında Azərbaycan Respublikasının Daxili İşlər naziri vəzifəsinə təyin edilir. Azərbaycanın Ermənistanla sərhəd rayonlarını gəzərək erməni təcavüzünü gözləri ilə görən nazir Məhəmməd Əsədov həyəcan təbili çalır, təcili tədbirlərin görülməsi üçün Moskvaya SSRİ Daxili İşlər Nazirliyinə müraciət ünvanlayır, asayişi qorumaq üçün silah-sursat tələb edirdi. O, tez bir zamanda Xüsusi Təyinatlı Milis Dəstəsini yaradır. Məhəmməd Əsədov Xocalı hava limanında ermənilərin gediş-gəlişinə nəzarəti gücləndirmək üçün DİN-in qüvvələrini səfərbər edir. DİN Respublikanın çıxış yollarını ciddi nəzarətdə saxlayırdı. Sərhəd rayonlarına, Qarabağa, Ağdama, Göygölə, Gədəbəyə, Kəlbəcərə, Laçına, Goranboya, Tərtərə gedir. Çaykənd, Qarabulaq Todan, Erkəç, Mənəşli və digər kəndlərin quldurlardan təmizlənməsi əməliyyatlarında şəxsən iştirak edir. Bölgələrdən Bakıya dönən Əsədov müdafiənin gücləndirilməsi üçün təxirəsalınmaz, təcili tədbirlərin görülməsi barədə 27.08.1991-ci il tarixli 2/149 saylı altı vərəqdən ibarət məktubla Baş nazirə və Prezidentə müraciət edir, təkliflərini bildirirdi. Məhəmməd Əsədov 1991-ci ilin noyabrında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasını tezləşdirmək, ordu quruculuğu işində mərkəzlə hüquq-mühafizə orqanları arasında birgə işin təşkilini həyata keçirmək üçün dövlət müşaviri təyin olunur. 20 noyabr 1991-ci il tarixində Qarakənd səmasında ermənilər tərəfindən vurulan vertolyotda şəhid olur.



Erməni mənbələri bildirir ki, hadisələrdən bir gün əvvəl 26 fevral 1988-ci il tarixdə Mixail Qorbaçov erməni ziyalıları ilə görüşündə Bakıda yaşayan 200 mindən çox ermərninin təhlükəsizliyindən "narahat olduğunu" ifadə edərək, bunu birbaşa Artsax ermənilərinin Dağlıq Qarabağı birləşdirmək tələbi ilə əlaqələndirib. Həmçinin ermənilər 22 fevral 1988-ci il tarixndə Əsgəran şəhərində baş vermiş toqquşma nəticəsində ermənilər tərəfindən qətlə yetirilən iki azərbaycanlı gənc Qarbağın ilk şəhidləri Əli Hacıyev və Bəxtiyar Quliyevin öldürülməsi ilə bağlı SSRİ Baş Prokurorunun birinci müavini Aleksandr Filipoviç Katusevin televiziyada çıxışını da təxribat hesab edirlər.

Erməni mənbələrinin verdiyi yalan məlumatda deyilir: "Fevralın 29-da sovet qoşunları Sumqayıta daxil oldu, lakin zorakılıq və qətllər həmin gün də davam etdi. Ordu silah tətbiq etmək əmri almadı və ermənilərə kömək etmədi. Yalnız axşam saatlarında qətiyyətli addımlar atdı və növbəti talanların qarşısını aldı. Cinayəti törədənlərdən cəmi 94 nəfər məsuliyyətə cəlb edilib və onlardan yalnız biri ölüm cəzasına məhkum edilib (söhbət günahsız yerə güləllənmiş Əhməd Əhmədovdan gedir). Qalanları isə qətl, zorlama, soyğunçuluq və digər maddələrlə ittiham olunub və bütün hallarda istisnasız olaraq cinayətin əsaslandırılması "xuliqanlıq motivləri" adlandırılıb.

Sovet hakimiyyəti bütün cinayətləri bir ümumi işə daxil etmək əvəzinə, onları qəsdən bir neçə hissəyə bölərək, müxtəlif sovet şəhərlərinin məhkəmələrində məhkəmə proseslərini apardı. Məhkəmə prosesləri zamanı məhkəmə prosesinin və zərərçəkmişlərin hüquqlarının kobud şəkildə pozulması halları olub. SSRİ dağılandan sonra cinayətkarların bir çox işlərinə xitam verildi və onların əksəriyyəti azadlığa buraxıldı. Cinayət rəsmi şəkildə pislənməyib və həlak olanların yaxınlarına başsağlığı verilməyib. Buna adekvat siyasi qiymət verilməməsi SSRİ-nin müxtəlif şəhərlərində kütləvi qırğınların başlanmasına səbəb oldu. Şəhər və hüquq-mühafizə orqanlarının əməkdaşları da cəzasız qalıb. Sumqayıt Erməni Soyqırımı qurbanlarının dəqiq sayı məlum deyil. Azərbaycan Prokurorluğunun təqdim etdiyi məlumatlara əsasən, SSRİ Prokurorluğu "Sumqayıtda 27 erməni millətindən olan vətəndaşın öldürüldüyünü" elan edib. Lakin qeyri-rəsmi məlumatlara görə, soyqırım qurbanlarının sayı min nəfərə çatır ki, onların qalıqları hələ də Sumqayıt ətrafında yeni tikililər zamanı tapılır".

Eyni zamanda ermənilər yalançı şahid ifadələri ilə öz məlumatlarını "zənginləşdirməyi"də unutmurlar.

## SUMQAYIT TƏXRİBATININ NƏTİCƏLƏRİ

Sovet Xüsusi xidmət orqanları tərəfindən həyata keçirilən Sumqayıt cinayətindən ermənilər müəyyən dərəcədə istəklərinə nail oldular. Onlar xaricdə fəaliyyət göstərən erməni lobbisinin vasitəsi ilə Avropa Parlamenti (1988), ABŞ Senatı (1989) və Argentina parlamentində Sumqayıt hadisələrini pisləyən qərarlar qəbul etmeyə nail oldular. Eyni zamanda Ermənistanın daxili auditoruyasına həmçinin beynəlxalq ictimaiyyətə aşıladılar ki, erməni xalqı ilə azərbaycan xalqının birlikdə yaşaması mükün deyil. Eyni zamanda özlərinin mifoloji arzuları olan Miatsum hərakatını genişləndirməyə nail oldular.

## SUMQAYIT TƏXRİBATININ QURBANI ƏHMƏD ƏHMƏDOV

Sumqayıt hadisələri zamanı barəsində ölüm hökmü çıxarılmış Əhməd Əhmədov kimdir?

Əhməd İmani oğlu Əhmədov

Əslən Lerik rayonunun Vistən kəndindəndir. Atası Əhmədov İmani Vahab oğlu Vistən kəndində anadan olub. O, həmkəndlisi Əhmədova Telli Rəzzaq qızı ilə 1951-ci ildə nigaha girib. Bu nigahdan onların Sənubər, Məmmədağa, Məhəbbət, Zöhrab, Əminə, Əhməd və Əzizə adlı övladları doğulub. İmani Əhmədov 1956-cı ildə ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçüb. Bu səbəbdən Əhməd Əhmədov 23 sentyabr 1964-cü ildə Sumqayıt şəhərində doğulub.

O, 1979-cu ildə Sumqayıtdakı 25 nömrəli məktəbin 8-ci sinfini bitirib. Sonra 7 nömrəli şəhər texniki peşə məktəbində oxuyub. 1982-ci ildə ordu sıralarına çağırılıb. 1985–1988-ci illər arasında Sumqayıt Aliminum zavodu və Trikotaj fabriklərində işləyib. Oxuduğu məktəbdən və iş yerlərindən ona müsbət xasiyyətnamə verilib. Heç bir inzibati və ictimai cəzası olmayıb.

Orta texniki peşə təhsili olan Əhməd Əhmədov Sumqayıt hadisələri vaxtı Xovlu-iplik fabrikində fəhlə işləyib. O, həbs olunadan bir müddət öncə nişanlanıb, yaşı 70-i keçən valideynləri 1988-ci ilin yayında Əhməd Əhmədovu evləndirmək niyyətində imiş. Ə.Əhmədov ilk dəfə fevralın 29-da axşam saatlarında işdən evə dönərkən şəhərdə keçirilən kütləvi aksiyalara qoşulub, lakin heç bir qətlin törədilməsində iştirak etməyib. 12 mart 1988-ci ildə Sumqayıtda həbslər həyata keçirən prokurorluq nümayəndələri Əhməd Əhmədovun evinə gələrək onu həbs ediblər. O, Sumqayıtdakı 41a məhəlləsində 7 erməninin ölümündə təşkilatçı və iştirakçı qismində təqsirləndirilib. SSRİ Ali Məhkəməsində onun təqsiri sübut olunmasa da, ona qarşı məhkəmə 18 noyabr 1988-ci il tarixli hökmü ilə ona edam cəzası verib. Azərbaycan xalqının sərt təpkisi ilə qarşılaşan Sovetlər Birliyi hökuməti edam cəzasının icrasını uzadır. Bakıda "Azadlıq" meydanında yüz minlərlə insan "Əhməd Əhmədova Azadlıq!" deyərək hayqırırdı.

SSRİ hüquq mühafizə orqanları tərəfindən aparılan istintaq Əhmədov Əhməd İmani oğlu, Cəfərov Yavər Qiyas oğlu, İsmayılov İlham Azad oğlunun cinayət işini ayıraraq Moskvaya göndərmişdir. Lakin məhkəmə istintaqı zamanı onların ermənilərə qarşı qətl hadisəsində iştirak etmədiyi üzə çıxıb. Məhkəmədə hər üç şəxs bir-birlərini tanısalarda cinayət törətmədiklərini bildiriblər.

Əhməd Əhmədovun cinayəti sübuta yetirlməyib istintaq orqanı tərəfindən hadisələr zamanı öldürülmüş Arakelyanın qan izlərinin Əhməd Əhmədovun pencəyində olmasını əsas gətirsələr də pencək həddindən artıq böyük olduğu üçün bu dəlilin də saxta olması üzə çıxıb. Lakin Əhməd Əhmədovun gənc emosional olması məhkəmə istintaqı zamanı gerçəklikləri çəkinmədən məğrurcasına deməsi onun ölümünə səbəb olub. Cəfərov Yavər Qiyas oğlu və İsmayılov İlham Azad oğlunun barəsində cinayət işi yenidən Azərbaycana təkmil istintaqa qaytarılmışdır. Adıçəkilən iki şəxs sonradan haqlı olaraq cinayət məsuliyyətindən azad olmuşdur. Bu da günahsız və məğrur bir Azərbaycan övladının məhkəmə də son sözü.

Əhməd Əhmədov: "Mən günahsızam irəli sürülən ittihamları rədd edirəm. Ancaq azadlığa çıxsam söz verəm ki, erməniləri öldürəcəm!."

Əhməd Əhmədovun qardaşı Məmmədağa Əhmədovun sözlərinə görə qardaşının müdafiəsi ilə bağlı tutduqları 3 vəkilin müəmalı şəkildə ölməsinin səbəbləri hələ də onlar üçün sirr olaraq qalır.

## SAXTA MƏKTUB

27 may 1989-cu il tarixində Azərbaycan SSR Prokurorluğu Ə. Əhmədovun validyenlərinə məktub göndərib. Göndərilən həmin məktubda SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Əhməd Əhmədova verilən güllələnmə cəzasının dəyişdirilərək həbslə əvəz olunduğu bildirilib. Lakin tezliklə bu məktubun həqiqətə söykənmədiyi aşkar olunub.

Əhməd Əhmədovun qardaşı Məmmədağanın sözlərinə görə, 1989-cu ilin sonlarında Azərbaycan SSR Prokurorluğunun cinayət işlərinə məhkəmələrdə baxılması üzrə nəzarət şöbəsinin prokuroru Cavanşir İsmayılovdan Əhmədin cəzasının dəyişdirilməsi ilə bağlı məktub alıblar. Məktubda deyilirdi: "Oğlunuz Əhmədov Əhməd SSRİ Ali Məhkəmsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 1988-ci il 18 noyabr tarixli hökmü ilə müstəsna cəza növü olan güllələnməyə məhkum edilmiş, lakin SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə güllələnmə cəzası dəyişdirilərək, həbs cəzası ilə əvəz edilmişdir."

Cavanşir İsmaylov sonradan mətbuata verdiyi açıqlamada deyir: "Həmin məktubu Əhməd Əhmədovun valideynlərinə mən yazmışam. Həmin günlərdə "Azadlıq" meydanında mitinqlər gedirdi. Meydanda Əhməd Əhmədovun şəkilləri qaldırılandan sonra tələblər irəli sürülmüşdü. Respublika rəhbərliyi təşviş içində idi. Əhmədovun valideynləri Vəzirova, respublikanın digər rəhbərlərinə ərizələr yazmışdılar. Tarixi dəqiq yadımda deyil, onlar yenə prokurorluğa qəbula gəlmişdilər. Şöbə müdiri İlqar Dadaşov məni yanına çağırdı. Əhməd Əhmədov haqqında ölüm hökmünün dəyişdirildiyini dedi. Mən məhkəmə qətnaməsinin, yaxud SSRİ Ali Məhkəməsi Kollegiyasının qərarının surətini istədim. O, bir-iki günə əllə göndərəcəklərini dedi. Qətnaməsiz cavab yazmağın mümkün olmadığını dedim. Etirazlarım isə qulaqardına vuruldu. Əsasnaməni oxumağı məsləhət gördü. Əsasnaməyə görə, ilk şikayətlərə şöbə prokurorlar cavab verməli idi. İkinci, üçüncü şikayətə şöbə müdiri, daha sonra baş prokurorun müavinləri və sonda baş prokuror özü…"

Araşdırmalar göstərdi ki, bu variantı Mərkəzi Komitə üzvlərindən kimsə meydanda gərginliyi azaltmaq üçün ortaya atmışdır. Əhmədova ölüm hökmü veriləndən sonra Azərbaycandan SSRİ-nin ali hakimiyyət orqanlarına yüzlərlə şikayət məktubu göndərilsə də, onların heç birinə cavab verilməyib. SSRİ xalq deputatı A. Mnikovun Mixail Qorbaçovdan Əhmədovun işinin yüngülləşdirilməsi xahişinə belə baxılmayıb. Əhməd Əhmədov barəsində edam hökmü 17 ay sonra 6 aprel 1990-cı il tarixində icra olunub.



*Səməd VƏKİLOV,*
*Tədqiqatçı-hüquqşünas*

# Əhmədov Əli - Ömür kitabının 93-cü səhifəsi



**Daha bir il keçir, ömür kitabında daha bir səhifə sonlanır. Hər səhifəsi özündə ailə, nəvə və nəticələrin sevinci ilə bərabər həsrəti, yurd acısı daşıdı. Dərələyəz mahalının Qaraqaya kəndinin ən yaşlı sakini, Əli Əhmədovun 93 yaşı tamam olur.**

Əhmədov Əli Zeynalabdin oğlu 28.02.1933-cü ildə Ermənistan SSR, Əzizbəyov rayonu Qaraqaya kəndində zəhmətkeş bir ailədə dünyaya göz açır. Bacısı Nubarcan və qardaşı Vəli Əhmədov olmaqla ailədə 3 uşaq olublar. Atası Əhmədov Zeynalabdin Sovet hakimiyyətinə qarşı çıxıb, qaçaq olub. Atasının ən yaxın dostlarından birirdə Güneyvəng kəndindən qaçaq Süleyman olub. Əhmədov Zeynalabdin Əli oğlu Qaraqayada anadan olub. Babası Əhmədov Əli Hacıəhməd oğludur.

Əhmədov Əli 1940-cı ildə 7 yaşında Qaraqaya 4 illik kənd məktəbində oxumağa başlayır. Qaraqayanın bulağlarını, çaylarını, səfalı guşələrini xatırladığı kimi məktəb illərinidə xoş xatırlayır. Məhəmməd İbişoğlu, Bağdagül və Həsən müəllimdən dərs aldığını hələdə xatırlayır.

Uşaq yaşlarından təsərrüfatla məşğul olmuşdur. Qoçaqlığı və cəldliyi ilə həmyaşıdlarından çox fərqlənirdi. Vətənpərvər ruhda böyüyən Əli Əhmədov hələ uşaq yaşlarından arxa cəbhədə şücaət göstərərək, böyük həvəslə orduya gedən ərzaqın, taxılın və digər kənd məhsullarının çatdırılmasında xüsusi fədakarlıq göstərmişdir. Göstərdiyi məharətli xidmətlərinə görə bir çox dövlət əhəmiyyətli medallarla təltif olmuşdur.

Hələ hərbi xidmətə getməzdən əvvəl müharibə vaxtlarında arxa cəbhədə göstərdiyi əzimkarlığı və fədakarlığına görə 1946-cı ildə müharibə veteranı adı almış və döş nişanı ilə mükafatlandırılmışdır. 1954-cü ildə Sovet ordusunun tərkibində qulluq etmişdir.

1975-ci ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

1985-ci ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

1995-ci ildə Azərbaycan xalqının



ümummilli lideri Heydər Əliyevin 1 may 1995-ci il tarixli Fərmanı ilə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 aprel 2005-ci il tarixli Sərəncamı ilə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

1965-ci ildən 1983-cü ilə qədər Arpaçay-Göyçəgöl tunelində çalışmışdır. Yeraltı tunelə açılan şaxta Qaraqaya kəndinin ərazisində yerləşirdi. 1983-cü ildə Əli Əhmədov qüsursuz xidmətlərinə görə əmək veteranı adı almış və "Əmək medalı" ilə təltif olunmuşdur.

1966-cı ilin sentyabr ayının 23-də Əhmədova (Mamedova) Kubra Mirzəxan qızı ilə ailə həyatı qurur. Bu nigahdan 3 oğlu - Əhmədov Vilayət, Əhmədov Hidayət, Əhmədov Etibar və 2 qızı - Əhmədova İlqarə, Əhmədova Tacirə olur.

1970-ci ildə Yeğeqnazor şəhəri, 28 nömrəli Texniki peşə məktəbini "Elektroqaz qaynaqçısı" ixtisası üzrə bitirmişdir.

1984-cü ildə Əli Əhmədova tuneldə işlədiyi dövrlərdə nümunəvi və səmərəli fəaliyyətinə görə İrəvanda 4 otaqlı ev verilir. 1986-cı ilə qədər İrəvan şəhərində yaşayır. Oradakı yaşayış tərzinə və bir çox təzyiqlərə, haqsızlıqlara dözməyən Əli Əhmədov 1986-cı ildə Bakının Əhmədli ərazisində yaşayan Paziyan adlı erməni ilə evi dəyişmək məcburiyyətində qalmışdır. Həmin ildən ailəsi ilə birgə Bakıda yaşamağa başlamışdır.

# Qərbi Azərbaycanın tarixi yaddaşı və gənclərin strateji rolu!

**Qərbi Azərbaycan anlayışı yalnız coğrafi termin deyil, tarixi-siyasi və mədəni məna daşıyan anlayışdır. Bu ad altında bu gün Ermənistan ərazisində qalan, vaxtilə azərbaycanlıların yaşadığı qədim yaşayış məntəqələri nəzərdə tutulur. Tarixi mənbələr göstərir ki, bu ərazilərdə azərbaycanlı əhali əsrlərlə yaşamış, öz mədəniyyətini, adət-ənənəsini və ictimai həyatını formalaşdırmışdır.**

Qərbi Azərbaycan nənələrimizin danışdığı nağıllarda, babalarımızın nisgilli baxışlarında, evlərimizin divarlarında asılan köhnə şəkillərdə yaşayan bir xatirədir. Bu torpaqlar min illər boyu azərbaycanlıların yurdu olmuş, mədəniyyətimizin, dilimizin və ruhumuzun ayrılmaz parçasına çevrilmişdir.

XX əsrdə baş verən siyasi proseslər, xüsusilə 1948-1953-cü illərdə SSRİ rəhbərliyinin qərarı ilə həyata keçirilən deportasiya siyasəti nəticəsində on minlərlə azərbaycanlı öz tarixi torpaqlarından köçürülmüşdür. 1988-ci ildən etibarən isə Ermənistan ərazisində yaşayan azərbaycanlı əhali tamamilə qovulmuş və bu proses nəticəsində bölgənin demoqrafik tərkibi dəyişdirilmişdir. Bu hadisələr yalnız coğrafi dəyişiklik deyil, həm də mədəni və tarixi yaddaşın sarsıdılması idi.

Bu gün Qərbi Azərbaycan məsələsi yalnız keçmişin xatırlanması deyil, həm də milli yaddaşın qorunması məsələsidir. Tarix göstərir ki, yaddaşını itirən xalqlar zamanla kimlik böhranı yaşayır. Buna görə də gənclərin üzərinə mühüm vəzifə düşür. Qərbi Azərbaycan məsələsində gənclərin rolu üç əsas istiqamətdə qiymətləndirilə bilər: tarixi yaddaşın qorunması, informasiya mübarizəsi və mədəni davamlılıq.

İlk növbədə, gənclər tarixi faktları sistemli və elmi əsaslarla öyrənməlidir. Çünki hər hansı milli məsələni müdafiə etməyin ən güclü yolu emosional yanaşma deyil, sənədləşdirilmiş həqiqətlərə söykənməkdir. Arxiv sənədləri, rəsmi statistik göstəricilər, tarixi xəritələr və akademik tədqiqatlar Qərbi Azərbaycanın müxtəlif dövrlərdə azərbaycanlı əhalinin sıx yaşadığı ərazi olduğunu göstərən mühüm mənbələrdir. Xüsusilə XIX əsr Çar Rusiyası dövrünə aid siyahıyaalma materialları və XX əsrin əvvəlinə dair demoqrafik məlumatlar bölgədə azərbaycanlıların mühüm paya malik olduğunu təsdiqləyir. Əlavə, toponimlərin, yəni yer adlarının araşdırılması da mühüm istiqamətdir. Bir çox yaşayış məntəqələrinin tarixi adları türk mənşəli olmuş və sonradan dəyişdirilmişdir. Bu faktların öyrənilməsi bölgənin mədəni və etnik tarixini anlamağa kömək edir.

İkinci mühüm istiqamət maarifləndirmədir. Müasir dövrdə informasiya axını ənənəvi vasitələrlə məhdudlaşmır; rəqəmsal platformalar ictimai rəyin formalaşmasında həlledici rol oynayır. İnformasiya müharibəsi anlayışı artıq beynəlxalq münasibətlər sistemində qəbul olunmuş reallıqdır və tarixi məsələlər də bu müstəvidə müzakirə edilir. Bu baxımdan sosial media Qərbi Azərbaycan məsələsinin təqdimatında strateji əhəmiyyət daşıyır. Gənclər Qərbi Azərbaycan kəndləri, onların tarixi adları (toponimləri), mədəni və dini abidələri, eləcə də bölgənin demoqrafik tarixi haqqında məlumatları sistemli və mənbəyə əsaslanaraq paylaşa bilərlər. Məsələn, XIX-XX əsr siyahıyaalma materiallarına, arxiv sənədlərinə və akademik araşdırmalara istinad etməklə hazırlanmış paylaşımlar mövzunun emosional deyil, faktoloji əsaslara söykəndiyini göstərir. Bu yanaşma həm daxili auditoriyada məlumatlılıq səviyyəsini artırır, həm də beynəlxalq ictimaiyyət üçün etibarlı mənbə rolunu oynayır. Tarixi faktlar düzgün və vaxtında təqdim edilmədikdə, birtərəfli yanaşmalar üstünlük qazana bilər. Buna görə də rəqəmsal mühitdə passivlik deyil, planlı və strateji fəaliyyət vacibdir.

Sosial media yalnız paylaşım platforması deyil o, eyni zamanda rəqəmsal arxiv funksiyasını yerinə yetirir. Ailə xatirələrinin, köhnə sənədlərin, fotoşəkillərin və şifahi tarix nümunələrinin rəqəmsallaşdırılması milli yaddaşın qorunmasına xidmət edir. Bu materiallar gələcək tədqiqatçılar və nəsillər üçün açıq mənbə rolunu oynaya bilər. Bununla yanaşı, beynəlxalq auditoriyaya çıxış imkanları da xüsusi əhəmiyyət daşıyır. Xarici dillərdə hazırlanmış məzmun Qərbi Azərbaycan məsələsinin qlobal informasiya məkanında tanıdılmasına şərait yaradır. Bu isə mövzunun yalnız lokal deyil, beynəlxalq müstəvidə də müzakirəsinə imkan verir. Bir sözlə rəqəmsal media gənclərə fikirlərini sərbəst ifadə etməyə,bir paylaşımla minlərlə insanın Qərbi Azərbaycan haqqında məlumat almasına həmçinin bütün dünyada insanlara səslənə bilərlər. Bu da milli məsələlərin beynəlxalq səviyyədə tanınmasına kömək edir.

Üçüncü istiqamət mədəni irsin qorunmasıdır. Qərbi Azərbaycana məxsus folklor nümunələri, şifahi xalq ədəbiyyatı, ləhcə xüsusiyyətləri və ailə xatirələri yazıya alınmalı və gələcək nəsillərə ötürülməlidir. Çünki mədəniyyət qorunduqca tarix yaşayır. Eyni zamanda hüquqi və siyasi aspektlərin öyrənilməsi də vacibdir. Deportasiya və məcburi köçürülmə beynəlxalq hüquq normalarına zidd proseslərdir. Bu məsələlərin hüquqi müstəvidə araşdırılması və sənədləşdirilməsi gələcək perspektiv baxımından əhəmiyyətlidir.Gənclər bu mövzunu yalnız emosional şüar səviyyəsində deyil, strateji düşüncə ilə yanaşmalıdırlar. Qərbi Azərbaycan məsələsi milli kimlik, tarixi ədalət və mədəni davamlılıq məsələsidir. Tarixi yaddaş qorunduğu müddətdə bir xalqın varlığı davam edir.

Ümid bir millətin ən böyük gücüdür. Tarix göstərir ki, torpaq yalnız xəritədə deyil, insanların yaddaşında və qəlbində yaşayır. Əgər bir xalq öz keçmişini unutmursa, öz köklərinə bağlı qalırsa və gələcəyə inamla baxırsa, o zaman qayıdış düşüncəsi də yaşayır. Ümid insanları ayaqda saxlayan, onları bir amal ətrafında birləşdirən gücdür. Bu ümid nəsildən-nəslə ötürülür, yaddaşlarda yaşayır və bir gün gerçəyə çevriləcək inama çevrilir. Çünki ümid olan yerdə inam var, inam olan yerdə isə qayıdışın yolu heç vaxt bağlanmır.



*Nağıyeva Nilgün*
*Qərbi Azərbaycan Gənclər Şurasının Üzvü*
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistr I kurs tələbəsi*

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
***Baş redaktorun müavini***
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**